Müslüm Maqomayevin xatirəsinə həsr olunmuş I Beynəlxalq Vokal Mahnı Müsabiqəsi

Truskovets şəhərində Müslüm Maqomayevin xatirəsinə həsr olunmuş 1-ci Beynəlxalq Vokal Mahnı Müsabiqəsi böyük coşqu ilə başa çatıb. Dünyanın müxtəlif ölkələrindən 20 gənc vokal ifaçısının iştirak etdiyi beynəlxalq musiqi yarışında ecazkar səsi ilə münsiflər heyətini heyran edən ukraynalı gənc istedad Nikita Bortsov müsabiqənin qalibi elan olunub.

Beynəlxalq Vokal müsabiqəsinə qatılanları təbrik edən Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev, ecazkar səsi ilə dünyanın musiqi xəzinəsinə böyük töhfələr bəxş etmiş Müslüm Maqomayev yaradıcılığının çoxşaxəli çalarlarından bəhs edib. Əfsanəvi Azərbaycan oğlunun xatirəsinə həsr olunmuş beynəlxalq vokal müsabiqəsinin yüksək səviyyədə təşkil olunmasına görə Truskovets şəhərinin meri Andrey Kulçinsk və Ukraynada fəaliyyət göstərən Müslüm Maqomayev adına Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri, Xalq artisti Qurban Abbasova minnətdarlığını bildirib. Müsabiqənin iştirakında xidmətləri olanlara Azərbaycanın Ukraynadakı səfirliyinin fəxri diplomları təqdim olunub. Səfir qeyd edib ki, bu il Müslüm Maqomayevin 75 illiyi çərçivəsində Ukraynanın müxtəlif vilayət və şəhərlərində silsilə tədbirlər həyata keçirilib. Kiyev şəhərinin mərkəzində ölməz sənətkarın adına istirahət parkı və orada abidəsi ucaldılıb.

Tədbirdə Truskovets şəhərinin meri Andrey Kulçinski, Ukraynanın Xalq artistləri Qurban Abbasov, Aleksandr Dyaçenko və Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin sədri Rövşən Tağıyev çıxış edərək bu ildən başlayaraq Truskovets şəhərində keçiriləcək beynəlxalq vokal müsabiqəsinin gənc istedadların üzə çıxmasında müstəsna rol oynayacağını bildiriblər.

Andrey Kulçinski qeyd edib ki, Müslüm Maqomayev dünyanın mədəniyyət elçisidir. O, tək Azərbaycanda deyil, bütün dünyanın sevilən sənətkardır. Mən çox şadam ki, belə bir dahi musiqi korifeyinin xatirəsinə həsr olunmuş birinci Beynəlxalq Vokal müsabiqəsinin təşkilatçılarından biriyəm. Və bu ildən etibarən ənənəvi olaraq şəhərimiz ildə bir dəfə Müslüm Maqomayevin xatirəsini gənc istedadların üzə çıxması ilə yad edəcək. Biz hökmən belə bir dahi musiqi korifeyini gələcək nəsillərə tanıtdırmalıyıq.

Ukraynanın xalq artisti Qurban Abbasov Ukraynada Müslüm Maqomayevin xatirəsinə birinci Vokal müsabiqəsinin baş tutmasına görə özünü xoşbəxt hiss etdiyini vurğulayıb. M.Maqomayev vokal musiqi janrının azman ustadlarından biridir.

Müslüm Maqomayevin unudulmaz xatirəsinə işıq saçan beynəlxalq müsabiqədə 1-ci, 2-ci və 3-cü yeri qazanan gənc istedadlara diplom və pul mükafatları təqdim olunub. Müsabiqənin qalibi elan olunan gənc istedad Nikita Bortsov müsahibəsində bildirib ki, Müslüm Maqomayev vokal sənətində bizim üçün dahilik təcəssümüdür. Mən uşaqlıqdan onun vurğunu olmuşam. Məhz vokal sənətinə də onu dinləyə-dinləyə gəlmişəm. Sözün düzü ağlıma belə gəlməzdi ki, nə zamansa belə bir əfsanəvi musiqi korifeyinin xatirəsinə həsr olunmuş mahnı müsabiqəsinin qalibi ola bilərəm. Bu gün 1-ci yeri qazandığıma görə sevincimin həddi-hüdudu yoxdur. Müsabiqə çox gözəl təşkil olunmuşdu. Burada günəşli Azərbaycanın isti və qonaqpərvərliyi yaddaşımızda xüsusi iz buraxdı. Mən hər bir kəsə öz dərin minnətdarlığımı bildirirəm.

Truskovetsk şəhər meriyasının və Müslüm Maqomayev adına Azərbaycan Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən beynəlxalq müsabiqə zəngin konsert proqramı ilə başa çatıb.

Truskovets şəhərinə səfər çərçivəsində Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev şəhərin meri Aleksandr Kluçinsklə görüşüb. Görüş zamanı Truskovets şəhəri ilə Azərbaycanın kurort bölgələri arasında qarşılıqlı əlaqələrin qurulması məsələləri geniş müzakirə olunub.

Möhsüm QƏDİROĞLU,
Azərbaycan Televiziyasının Ukrayna və Şərqi Avropa bürosunun rəhbəri.

Respublika.-2018.-22 noyabr.- S.7